# "İnzibati icraat haqqında" qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqinin problemli məsələləri mövzusunda seminar

23 noyabr 2011-ci il tarixdə Şəki Apelyasiya Məhkəməsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Azərbaycanda Məhkəmə və Hüquq İslahatlarının dəstəklənməsi" layihəsi çərçivəsində layihənin rəhbəri Thomas Melzerin, Almaniyanın Baden-Vürttemberq Ali İnzibati Məhkəməsinin sədri Folker Ellenbergerin, həmin məhkəmənin tərkib sədrləri Karsten Harmsın və Karlheinz Schenkin, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Dadaşovun iştirakı ilə "İnzibati icraat haqqında" qanunun və İnzibati Prosessual Məcəlləsinin tətbiqinin problemli məsələləri mövzüsunda seminar keçirilmişdir. Tədbirdə Şəki Apelyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının hakimləri ilə yanaşı Şəki İnzibati-İqtisadi Məhkəməsinin, Gəncə Apelyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının və Gəncə İnzibati-İqtisadi Məhkəməsinin hakimləri də iştirak etmişlər. Tədbiri açan Şəki Apelyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov tədbir iştirakçılarını salamlayaraq, qonaqlara Şəkinin coğrafi və iqtisadi göstəriciləri, habelə adət-ənənələri və tarixi abidələri barədə məlumat vermişdir. Sonra o, respublikada aparılan məhkəmə-hüquq islahatlarından bəhs edərək həmin islahatlar çərçivəsində cari ilin əvvəlindən tətbiq olunmuş İnzibati-Prosessual qanunvericiliyinin vacibliyini qeyd etmişdir. M.Əkbərov bildirimişdir ki, 2011-ci ildə təsis edilmiş inzibati məhkəmələrin fəaliyyətinin səmərəliliyinin artırılması və inzibati işlərə baxılarkən vahid məhkəmə təcrübəsinin formalaşması prosesində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin əhəmiyyətli rolu olmuşdur. Həmin cəmiyyətin həyata keçirdiyi layihələrə uyğun olaraq Azərbaycan Respublikasının müxtəlif instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə Almaniyanın Baden-Vürttemberq torpağında birinci və Ali İnzibati instansiya məhkəmələrində qısa müddətli seminar - treninqlər keçirilmiş və bu sahədə əməkdaşlıq hazırda da davam etdirilir. M.Əkbərov bu ilin yanvar ayında nümayəndə heyətinin tərkibində Almaniyanın Manhaim şəhərində Baden-Vürttemberq Ali İnzibati Məhkəməsində, Ştutqart və Karlsruhe şəhərlərində müxtəlif instansiyalı, o cümlədən xüsusi ixtisaslaşmış inzibati məhkəmələrində keçirilmiş görüşləri xatırlayaraq alman həmkarlarına qonaqpərvərlik və səmərəli təşkilatçılığa görə minnətdarlığını bildirmişdir. Daha sonra o, Azərbaycanda məhkəmə hüquq islahatları çərçivəsində almaniyalı həmkaralarımızla əməkdaşlığa Məhkəmə-Hüquq Şurasının və Ali Məhkəmənin böyük önəm verdiyini vurğulayaraq 08.06.2011-ci il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsi və Baden-Vürttemberq torpağının Ali İnzibati Məhkəməsi arasında imzalanmış məhkəmə tərəfdaşlığının qurulmasına dair Bəyannaməni qeyd etmişdir.

Baden-Vürttemberq Ali İnzibati Məhkəməsinin sədri Folker Elenberger səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycanda aparılan köklü məhkəmə hüquq islahatlarından danışmış və bu sahədə həyata keçirilən böyük layihələri qeyd etmişdir. O, artıq bir neçə dəfə Azərbaycana gəldiyini deyərək inzibati məhkəmələrin işində gözə çarpan pozitiv dəyişiklikləri qeyd etmiş, bu sahədə hazırda tətbiq edilən "İnzibati icraat haqqında" qanunu, İnzibati Prosessual Məcəlləsini və digər normativ hüquqi aktları uğurlu ədalət mühakiməsi üçün mütərəqqi Qanunvericilik bazası kimi qiymətləndirmişdir.

Tədbirin gedişatında "Azərbaycanda Məhkəmə və Hüquq İslahatlarının dəstəklənməsi" layihəsinə, o cümlədən inzibati sahədə ədalət mühakiməsinin formalaşmasına həsr olunmuş "Bərabər səviyyəyə doğru yolda. Azərbaycanda vətəndaş və dövlət " adlı film nümayiş etdirilmişdir.

Daha sonra tədbir geniş fikir mübadiləsi, konkret kazuslar üzrə almaniyalı hakimlər tərəfindən verilən rəylər, inzibati qanunvericiliyin müəyyən normalarının təfsiri və məhkəmə təcrübəsində rast gəlinən problemli məsələlər üzrə açıq disput şəklində davam etdirilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika"..**